Sizə günahların ən böyüyü barədə xəbər verimmi?

Əbu Bəkrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Sizə günahların ən böyüyü barədə xəbər verimmi?" – deyə bunu üç dəfə soruşdu. Səhabələr: “Bəli, ey Allahın Rəsulu!” – deyə cavab verdilər. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun): "Allaha şərik qoşmaq və valideynlərin üzünə ağ olmaq" – dedi. (Bunu deyərkən) o söykənmişdi sonra qalxıb oturdu və: "Yalan söz danışmaq" – deyə əlavə etdi. O bunu durmadan o qədər təkrar etdi ki, biz (bir-birimizə): "Kaşki, susaydı!" – dedik”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əshabına ən böyük günahları xəbər vermiş və bu üç günahı zikr etmişdir: 1 - Allaha şərik qoşmaq. Bu, hər hansı bir ibadət növünü Allahdan başqasına sərf etməkdir. Həmçinin, Allahdan başqasını, Allahın uluhiyyəti, rububiyyəti, ad və sifətlərində Uca Allaha bərabər tutmaqdır. 2 - Valideynlərin üzünə ağ olmaq. Bura, söz və ya əməl olmasından asılı olmayaraq ata-anaya qarşı edilən bütün növ əziyyətlər, həmçinin onlara yaxşılıq etməyi tərk etmək də daxildir. 3 - Yalan danışmaq, yalandan şahidlik etmək: Yalan demək dedikdə bura, başqasının malını mənimsəmək, başqasının namusuna toxunmaq və s. buna bənzər şeylər üçün yalandan deyilən hər bir söz daxildir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) yalan demənin çirkinliyini və cəmiyyətdə pis nəticələrə səbəb olmasına diqqətə çəkmək üçün bunu dəfələrlə təkrarlamışdır. Hətta sahabələr Peyğəmbərimizə (Allahın salavatı və salamı onun üzərinə olsun) olan şəfqətlərindən və onu rahatsız edən şeydən xoşlanmadıqlarından dolayı onun susmasını arzu etmişdilər.

https://sunnah.global/hadeeth/az/show/2941